# MƏMMƏDƏLİ NOVRUZOV

**(1956-2021)**



Tanınmış türkoloq-alim, Bakı Dövlət Universitetinin Türkologiya kafedrasının professoru Məmmədəli Dünyamalı oğlu Novruzov (Qıpçaq) ömrünün 65-ci ilində dünyasını dəyişdi. Məmmədəli Novruzov (Qıpçaq) 1956-cı il mart ayının 28-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Cəhri kəndində anadan olmuşdur. Uşaqlıq illəri doğma kəndlərində həmyaşıdları arasında keçmiş, orta məktəbi həmin kənddə bitirmişdir. Müəllimləri və həmyaşıdları onu prinsipial, hazırcavab və istedadlı şagird kimi tanıyırdılar. Orta məktəbi müvəffəqiyyətlə bitirəndən sonra valideynləri, qohumları və dostları onu Bakıya yola salırlar.

1973-cü ildə qəbul imtahanlarını uğurla verərək BDU-nun Filologiya fakültəsinə daxil olur. Dil və ədəbiyyat fənlərinə marağı daha da artır, bu elmlərə dərindən yiyələnmək üçün ciddi çalışır. F.Zeynalov, Ə.Abdullayev, S.Cəfərov, Ə.Ağayev, T.Hacıyev, Y.Seyidov və bu kimi tanınmış alimlərin mühazirələri onun dünyagörüşünü genişləndirir, biliklərini dərinləşdirir.

Tələbəlik illəri keçmiş sovet dönəminə təsadüf etsə də, o vaxtdan türkologiyaya daha çox maraq göstərir, eyni zamanda türkoloji dərnəkdə türk xalqlarının tarixi ilə bağlı maraqlı məruzələrlə çıxış edirdi. Məşğələ dərslərindəki çıxışları, çap olunmuş məqalələrindəki orijinal fikir və mülahizələri onun artıq tədqiqatçı kimi yetişməsindən xəbər verirdi. Professor F.Zeynalov onun fəaliyyətini həmişə yüksək qiymətləndirmiş, tələbəsinin istedad və bacarığından türkologiyanın inkişafı üçün istifadə etmək qərarına gəlmişdi.

BDU-da təhsilini başa vurandan sonra o, doğma kəndi Cəhriyə qayıdıb 1978-81-ci illərdə kənd orta məktəbində dil-ədəbiyyat müəllimi işləmişdir. Görkəmli türkoloq F.Zeynalovun məsləhəti ilə 1981-ci ildə Məmmədəli müəllim “Türk dilləri” ixtisası üzrə aspiranturaya qəbul olunur. Bununla da ömür boyu davam edəcək elmi tədqiqatlara başlamış olur. Türk xalqlarının tarixinə, qədim dil əlaqələrinə və etimoloji məsələlərə dair tədqiqatlar aparmağa başlayır. Məmmədəli müəllimin gərgin və ardıcıl elmi araşdırmaları öz bəhrəsini verir. O, 1989-cu ildə “Türk dillərində hal kateqoriyası” mövzusunda filologiya üzrə fəlsəfə doktorluğu dissertasiyasını müdafiə edir. Elmi yaradıcılıqla ailə həyatının sevinci bir-birinə qarışır. Ailə qayğıları artsa da, elmi fəaliyyətini əvvəlki sürətlə davam etdirir. “Türk dillərində hal kateqoriyası” monoqrafiyası işıq üzü görür. Bir-birinin ardınca “Türk say sistemi”, “Türk savaş sənəti” (Ə.Əskərlə birlikdə), “Söz aləminə səyahət”, “Türk dillərinin səs quruluşu”, “Kəmiyyət anlayışının dildə ifadəsi: Tarixi-tipoloji tədqiqat” və “Türk yazısının tarixi” kitabları çap olunur.

Keçən yüzilliyin sonlarında Məmmədəli Qıpçaq elmi ictimaiyyət arasında aydın və orijinal üslubu olan alim kimi tanınır. Türkoloji tədqiqatlarda onun araşdırmalarından mükəmməl mənbə kimi istifadə olunur. Onun adı görkəmli türkoloqlarla yanaşı çəkilir. Dünya dillərində kəmiyyət anlayışı ilə bağlı apardığı tipoloji araşdırmalarını 2003-cü ildə tamamlayır və elə həmin ildə də "Kəmiyyət anlayışının dildə ifadəsi" mövzusunda filologiya elmləri doktorluğu dissertasiyası müdafiə edir. Bu dəyərli türkoloji tədqiqat iki indekslə: türk dilləri və dil nəzəriyyəsi ilə müdafiəyə təqdim edilir. Məmmədəli müəllimin araşdırması yüksək qiymətləndirilir və o, filologiya elmləri doktoru dərəcəsinə layıq görülür. Məmmədəli Qıpçaq türkoloji tədqiqatlarının zirvəsi olan bir əsəri ilə Azərbaycan türkologiyasında yeni bir araşdırma istiqamətinin: türk dillərinin çox sayda qohum və qeyri-qohum dillərlə (fin-uqor, İber-Qafqaz, dravid, hind-Avropa, Tay-Tibet, İndoneziya, Avstroneziya, sami-hami, bantu, papuas, Amerika hindu dilləri və s.) müqayisəli tədqiqinin əsasını qoydu. Tədqiqat işində miqdar saylarının meydana çıxması problemi araşdırılır və türk dillərində miqdar saylarının toplama, çıxma və vurma əməllərinin yerinə yetirilmə sxemi üzrə meydana çıxması sübut olunur.

Məmmədəli Qıpçaq dilçiliyin hansı sahəsinə müraciət edirdisə, birinci növbədə mövzunun aktuallığını nəzərə alırdı. "Kitabi-Dədə Qorqud" abidəsi yetərincə tədqiq olunsa da, onun araşdırmaları yeniliyi, dərin məzmunu və aktuallığı ilə seçilir. Məmmədəli müəllimin bu abidə ilə bağlı "Kitabi-Dədə Qorqudun leksikası" (2012), "Kitabi-Dədə Qorqud"un dilində əlamət və keyfiyyət bildirən sözlər" (2012), "Dədə Qorqud kitabı"nın dilində fitonimlər" adlı kitab və metodik vəsaitləri, həmçinin 15 məqaləsi çap olunmuşdur.

Məmmədəli müəllimin yaradıcılığında dil tarixi və etimologiya məsələləri də əsas yer tutur. Bu baxımdan onun "Cəmlik kateqoriyasının mənşəyinə dair" (2002), "İyirmi sözünün etimologiyası"(2003), "Səkkiz və doqquz sözlərinin etimologiyası" (2003), "Otuz sözünün etimologiyası" (2003), "İki sözünün etimologiyası" (2003), "Çuvaş dilində *-sem* cəmlik şəkilçisinin mənşəyi" (2003), "Dədə Qorqud kitabı"nın dilində it və pişik semantikalı sözlər" (2008), "Qarapapaq-qara börk-qaraqalpaq etnonimləri haqqında" (2009), "Kitabi-Dədə Qorqud" dastanlarının dilində dəvəçilik leksikası" (2008) və s. məqalələri elmi əhəmiyyətinə görə seçilir.

M.Qıpçaq respublikamızda yüksək nəzəri bazası olan dilçilərdən sayılırdı. Nəzəri bilikləri türkoloji araşdırmalarının elmi səviyyəsini qat-qat artırırdı. Onun türkologiyanın ümumi nəzəri problemləri, qədim türk abidələri, müasir türk dillərinin fonetik, leksik və qrammatik quruluşu, türk əlifbaları sahələrində tədqiqatları aktuallığına görə elmi ictimaiyyət tərəfindən həmişə yüksək qiymətləndirilmişdir. Məmmədəli müəllimin türkologiya sahəsində səmərəli elmi yaradıcılığı respublikamızda bu sahəyə marağı artırmış, bu sahənin müxtəlif aspektdə tədqiqini genişləndirmişdir.

1985-ci ildən Bakı Dövlət Universitetində pedaqoji fəaliyyətlə məşğul idi. Təhsilin bakalavr və magistratura pillələrində "Türkologiyaya giriş", "Qədim türk dili", "Qədim türk yazılı abidələri", "Türk dillərində kəmiyyət kateqoriyası", "Türk əlifbaları" fənlərini tədris edirdi. Onun dərin məzmunlu mühazirələri tələbə və magistrlər tərəfindən maraqla qarşılanırdı. Tələbə və magistrlər üçün hazırladığı "Qədim türk yazılı abidələri fənninin proqramı", "Türkologiyaya giriş fənninin proqramı", "Kəmiyyət anlayışının dildə ifadəsi fənninin proqramı", "Türk əlifbaları fənninin proqramı", "Dədə Qorqud kitabı"nın dilində fitonimlər" və "Türk əlifbaları" adlı metodik göstərişləri həm metodik, həm də elmi baxımdan böyük əhəmiyyət kəsb edir.

Məmmədəli müəllim ixtisaslı elmi kadrların yetişməsi üçün ciddi çalışırdı. O,

magistr, xüsusən doktorantlarına elmi mövzular seçərkən onları çətin də olsa, türkologiyanın işlənməmiş sahələrinə yönəldir, orijinal və təkrarsız elmi işlərin ortaya qoyulmasına çalışırdı. Məhz onun məsləhətləri və istiqaməti verməsi sayəsində uyğur abidəsi "Xuastuanift", qıpçaq abidəsi "Codex Cumanicus" kimi Azərbaycan türkologiyasında tədqiq olunmamış və ya az tədqiq edilmiş bir çox sahələrin araşdırılmasına doktorantlar cəlb edilmişdir. Onlarla magistr, filologiya üzrə fəlsəfə və elmlər doktorluğu dissertasiyaları onun rəhbərliyi ilə yerinə yetirilmiş, çox sayda dissertasiyaların müdafiəsində rəsmi opponent kimi çıxış etmişdir. Alimin yetirmələri hazırda ali məktəblərdə və elmi-tədqiqat institutlarında çalışırlar.

Məmmədəli müəllim universitetin və respublikamızın elmi-ictimai həyatında fəal iştirak edirdi. O, 2007-2019-cu illərdə Azərbaycan Respublikası Prezidenti yanında AAK-nin filologiya üzrə Ekspert Şurasının, BDU-nun Filologiya fakültəsinin Elmi Şurasının, AMEA Nəsimi adına Dilçilik İnstitutunda İxtisaslaşmış Dissertasiya Şurasının üzvü olmuşdur.

Çox təəssüf ki, Məmmədəli müəllim dünyasını tez dəyişdi. Amansız xəstəlik onun çox arzularını yarımçıq qoydu, tədqiqatlarını başa çatdırmağa imkan vermədi. Tanınmış alim Məmmədəli Novruzovun qiymətli əsərləri daima oxunacaq, yeni araşdırmalara üfüq açacaq, o gözəl insanın parlaq xatirəsi onu tanıyanların, müəllimlərinin, həmkarlarının və tələbələrinin qəlbində əbədi yaşayacaq, xoş xatirələrlə anılacaqdır.

*Məhərrəm Məmmədli*
*İmanyar Quliyev*

———————